## *ALİ MƏCLİSİN İCLASI*

*10 aprel 2026-cı il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli Baş nazir və hökumət üzvləri, hörmətli media nümayəndələri, hamınızı salamlayıram!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının beşinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 44 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.03 dəq.) |
|---|---|
| İştirak edir | 44 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli deputatlar!

Bugünkü iclasın gündəliyinə 5 məsələ daxil edilmiş və sizlərə təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 10.04 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |
| Nəticə: Qəbul edildi | |

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat gündəliyin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatıdır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir.

Nazirlər Kabinetinin hesabatı Ali Məclisin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin komitələrinə rəy verilməsi üçün təqdim edilmiş, 31 mart və 1-3 aprel 2026-cı il tarixlərdə keçirilmiş komitə iclaslarında komitələrin sədr və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə hesabata baxılmışdır.

Ali Məclisin komitələri tərəfindən verilmiş rəylərdə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunmuşdur.

"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı"nı təqdim etmək üçün söz Naxçıvan Muxtar Respublikasının Baş naziri cənab Cabbar Musayevə verilir.

Buyurun, Cabbar müəllim!

**C.Musayev,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən 2025-ci ildə görülmüş işlər və həyata keçirilmiş fəaliyyətin nəticələri barədə hesabat qanunverici orqana təqdim olunur. Hesabatlılıq səmərəli və işgüzar əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət etməklə yanaşı, görülmüş işlərin, qarşıda duran əsas vəzifələrin və prioritet istiqamətlərin birgə müzakirəsi üçün əlverişli imkan yaradır.

2025-ci il Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə "Konstitusiya və Suverenlik İli" elan edilməsi, Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümü və Vətən müharibəsində qazanılmış tarixi qələbənin 5-ci ildönümü fonunda xüsusi siyasi və ideoloji əhəmiyyət daşımışdır. Bu qərar dövlətçilik ənənələrinin daha da möhkəmləndirilməsinə, milli birliyin gücləndirilməsinə, hüquqi dövlət quruculuğu istiqamətində aparılan siyasətin ardıcıl davamına xidmət etmişdir. İlin yekunları bir daha təsdiq edir ki, Azərbaycan milli maraqlarını qətiyyətlə qoruyan, strateji hədəflərini ardıcıl və məqsədyönlü şəkildə həyata keçirən, müasir çağırışlara çevik və adekvat cavab verən güclü dövlətdir. Bütün bunlar 2025-ci ilin ölkəmizin müasir inkişaf tarixində növbəti uğurlu və əlamətdar mərhələ kimi dəyərləndirilməsinə əsas yaradır.

Ötən ilin ən mühüm siyasi hadisələrindən biri 8 avqust tarixində Vaşinqtonda keçirilmiş Zirvə görüşündə əldə olunan nəticələr olmuşdur. Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin iştirakı ilə baş tutmuş həmin görüş zamanı Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən, ABŞ Prezidentinin isə şahid qismində imzaladığı Birgə Bəyannamə, eləcə də "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin paraflanması və əldə olunmuş digər razılaşmalar bölgədə yeni geosiyasi reallıqların daha da möhkəmlənməsinə, regionda dayanıqlı sülhün və davamlı inkişafın təmin olunmasına əlverişli şərait yaratmışdır.

Vaşinqton sammitində, eyni zamanda, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan “Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu” – TRIPP layihəsi üzrə də razılıq əldə edilmişdir. Bununla yanaşı, ATƏT-in Minsk prosesi və ona bağlı strukturların fəaliyyətinin dayandırılmasına nail olunmuş, beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq gündəlikdən çıxarılması istiqamətində mühüm siyasi mərhələ başa çatdırılmışdır.

2025-ci il 23 aprel tarixində Pekində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın imzalanması, 4 iyul tarixində Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün keçirilməsi, eləcə də 7 oktyabr tarixində Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşünün keçirilməsi bu əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə vermişdir. 2025-ci il həm də şanlı Zəfərimizin təntənəsinin, milli birliyimizin və gücümüzün bir daha nümayiş olunduğu il kimi tarixə yazıldı. 8 noyabr tarixində Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paradın keçirilməsi dövlətimizin qüdrətinin və ordumuzun peşəkarlığının parlaq təzahürü oldu.

Bu gün ölkəmizdə sabitlik, cəmiyyətdə müşahidə olunan ruh yüksəkliyi, təhlükəsizliyə və gələcəyə inamın daha da artması qarşıda duran bütün vəzifələrin uğurla həyata keçiriləcəyinə ciddi əsas verir. Bütün bunlar Azərbaycana bundan sonra da inamla irəliləməyə, milli maraqlarını qətiyyətlə təmin etməyə, dövlətçilik mövqelərini daha da möhkəmləndirməyə və qarşıya qoyduğu strateji hədəflərə uğurla çatmağa geniş imkan yaradır.

2025-ci il Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı əlamətdar nəticələrlə müşayiət olunmuşdur. Cənab Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında qazanılmış nailiyyətlər həm iqtisadi potensialın gücləndirilməsinə, həm də sosial rifahın yüksəldilməsinə xidmət etmiş, regionun gələcək inkişafı üçün etibarlı və möhkəm təməl yaratmışdır.

Hesabat dövründə Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun həcmi əvvəlki illə müqayisədə real ifadədə 3,8 faiz artaraq 1 milyard 709,4 milyon manat təşkil etmişdir. ÜDM-in 29,7 faizi məhsul istehsalının, 59,2 faizi xidmət sahələrinin, 11,1 faizi isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür.

Əhalinin hər nəfərinə düşən ÜDM isə 3,4 faiz artaraq 3 624,2 manat olmuşdur. İqtisadi strukturda əsas payı xidmət sektoru tutmuşdur. Əsas kapitala 397,3 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2024-cü illə müqayisədə 45,2 faiz çoxdur. Həmin vəsaitin 72,1 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Əsas kapitala qoyulan investisiyaların artımı, əsasən, yaşayış binalarının tikintisi, sənaye istehsal sahələrinin genişləndirilməsi, dəmiryolu və enerji təsərrüfatının yenilənməsi ilə bağlı olmuşdur. Sənaye sahəsində 474,2 milyon manat dəyərində məhsul istehsal edilmiş, bu da 2024-cü illə müqayisədə 7,2 faiz çox olmuşdur. Sənaye məhsulunun əsas hissəsi emal sənayesinin payına düşmüşdür. Kənd təsərrüfatında isə 402,2 milyon manat həcmində məhsul istehsal olunmuşdur. İnformasiya və rabitə xidmətləri 35,2 milyon manat təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsi 1 milyard 366,3 milyon manat olmuş və 4,0 faiz artmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 198,4 milyon manat təşkil etmişdir. Nəqliyyat sektorunda da müsbət dinamika davam etmişdir. Yük daşınması 7,2 milyon ton, sərnişin daşınması isə 48,1 milyon nəfər olmuşdur. Müvafiq olaraq yük daşınmasında 1,0 faiz, sərnişin daşınmasında isə 1,3 faiz artım qeydə alınmışdır.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında xarici ticarət dövriyyəsi 130,1 milyon ABŞ dolları təşkil etmişdir. Bunun 13,6 milyon ABŞ dolları və ya 10,4 faizi ixracın, 116,5 milyon ABŞ dolları və ya 89,6 faizi isə idxalın payına düşmüşdür. 2024-cü illə müqayisədə xarici ticarət dövriyyəsi 3,7 faiz artmışdır. Bu dövrdə idxal 1,4 faiz, ixrac isə 28,4 faiz artmışdır. 2024-cü illə müqayisədə istehlak qiymətləri indeksi 107,8%, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 108,6%, qeyri-qida məhsulları üzrə 108,0%, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 106,5% təşkil etmişdir.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında demoqrafik və əmək bazarı göstəricilərində bir sıra istiqamətlər üzrə müsbət dinamika müşahidə edilmişdir. 2026-cı il 1 yanvar tarixinə muxtar respublika əhalisinin sayı 472 429 nəfərə çatmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1 486 nəfər və ya 0,3 faiz çoxdur. Əhalinin məşğulluq vəziyyətinə nəzər saldıqda 2026-cı il 1 yanvar tarixinə iqtisadi fəal əhalinin sayı 275 513 nəfər olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6 545 nəfər və ya 2,4 faiz çoxdur. Məşğul əhalinin sayı isə 261 009 nəfər təşkil etmiş, bir il ərzində 1 718 nəfər və ya 0,7 faiz artmışdır. Qeydiyyatda olan işsizlərin sayı 14 504 nəfər olmuş, işaxtaranların sayı 22 257 nəfərə çatmışdır.

Hesabat dövründə muzdla çalışan işçilərin sayı 60 977 nəfər olmuş, onlardan 37 865 nəfəri və ya 62,1 faizi dövlət sektorunda, 23 112 nəfəri və ya 37,9 faizi qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. 2025-ci ildə muxtar respublikada 750 yeni iş yeri açılmışdır. Yeni iş yerlərinin 31,6 faizi dövlət, 68,4 faizi isə qeyri-dövlət sektorunda yaradılmışdır. Bununla yanaşı, yeni iş yerlərinin 34,7 faizi yeni yaradılmış, 65,3 faizi isə mövcud müəssisə və təşkilatlarda formalaşdırılmışdır. Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 822,3 manat təşkil etmişdir ki, bu, 2024-cü illə müqayisədə 5,1 faiz çoxdur. Dövlət sektorunda orta aylıq nominal əməkhaqqı 929,4 manat, qeyri-dövlət sektorunda isə 648,8 manat olmuşdur. Müvafiq olaraq dövlət sektorunda 5,8 faiz, qeyri-dövlət sektorunda isə 2,8 faiz artım qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın dayanıqlı inkişafının təmin olunmasına, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrinin formalaşdırılmasına, sahibkarlığın dəstəklənməsinə, istehsal sahəsində məşğulluğun artırılmasına, eləcə də təhsil, səhiyyə, mədəniyyət, kənd təsərrüfatı, turizm və yol infrastrukturunun inkişafına yönəlmişdir. Dövlət Proqramının məqsədyönlü və sistemli icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli Sərəncamı ilə prioritet istiqamətlər üzrə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2025–2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı” təsdiq edilmişdir. Təfsilatlı Tədbirlər Planına əsasən 2025-ci il üzrə, ümumilikdə, 204 tədbirin icrası nəzərdə tutulmuş, onlardan 51 tədbirin əsas icraçısı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti müəyyən edilmiş, bunlardan 46-sı maliyyə təminatlı tədbirləri əhatə etmişdir.

2025-ci ildə Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün müxtəlif istiqamətlər üzrə, ümumilikdə, 50,2 milyon manat vəsait cəlb olunmuşdur ki, bu vəsaitin 27,5 milyon manatı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli Sərəncamı ilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına, 1 milyon manatı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 may tarixli Sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan, 9,1 milyon manatı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 fevral tarixli Sərəncamı ilə avtomobil yollarının əsaslı və cari təmiri üçün nəzərdə tutulmuş vəsaitdən, 7,3 milyon manatı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 fevral tarixli Sərəncamı ilə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitdən, 3,7 milyon manatı Naxçıvan Muxtar Respublikasının “Avtomobil Yolları” Məqsədli Büdcə Fondundan, 165 min manatı isə Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondundan ayrılmışdır. 2025-ci ildə ayrılmış ümumi vəsaitin 43 milyon manatı və ya 86 faizi xərclənmişdir.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi, müasir tələblərə cavab verən infrastrukturun qurulması və regionun uzunmüddətli, dayanıqlı inkişafının təmin olunması məqsədilə 2025-ci il üzrə investisiya layihələri çərçivəsində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu çərçivədə, ümumilikdə, 30 müxtəlif infrastruktur və sosialyönümlü tədbirin icrası planlaşdırılmışdır. Həmin tədbirlər regionun iqtisadi potensialının artırılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, kommunal və nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, eləcə də regionun investisiya cəlbediciliyinin artırılmasına xidmət etmişdir. 2025-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin əsaslı vəsait qoyuluşu xərcləri çərçivəsində, ümumilikdə, 22 milyon manat vəsait ayrılmışdır. Layihələrin icrası üçün ayrılmış vəsaitin 99 faizi, yəni 21,8 milyon manatı bağlanılmış müqavilələr üzrə xərclənmişdir.

2025-ci ildə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində şəhər, qəsəbə və kənddaxili avtomobil yollarının yenidən qurulması və abadlaşdırılması üzrə mühüm layihələndirmə işləri görülmüşdür. Bu istiqamətdə, ümumilikdə, 52 layihə üzrə 723 km uzunluğunda avtomobil yolunun layihələndirilməsi işləri aparılmışdır. Hazırda bu layihələrin ekspertizadan keçirilməsi istiqamətində işlər davam etdirilir. Əlavə olaraq, 2025-ci ildə 55 km uzunluğunda avtomobil yolları yenidən qurulmuş və ya əsaslı təmir edilmişdir.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında sənaye infrastrukturunun genişləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində tədbirlər davam etdirilmişdir. Hesabat dövründə Şərur Sənaye Məhəlləsinin istismara hazırlanması, Naxçıvan Sənaye Parkının təşkili və azad iqtisadi zonanın yaradılması üzrə institusional və normativ işlər aparılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 5 dekabr tarixli 240 nömrəli Fərmanı ilə yaradılmış Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun cənubunda yerləşən 310 hektar torpaq sahəsi ayrılmış, parkda yaradılması məqsədəuyğun hesab olunan prioritet sahələr üzrə təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Təklif edilən istiqamətlər yeyinti sənayesi, aqrar sənaye, kimya sənayesi, neft-kimya, metallurgiya, yüngül sənaye, maşınqayırma, qeyri-metal məmulatlar, sellüloz-kağız məhsulları, tikinti materialları və müxtəlif xidmət sahələrini əhatə edir. Xüsusilə qida emalı, tekstil, tikinti materialları, günəş panelləri, qablaşdırma vasitələri, logistika, anbar, poçt, bank və texniki xidmət sahələri parkın əsas inkişaf istiqamətləri kimi müəyyən olunmuşdur.

2025-ci ildə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulmuş əlverişli biznes mühitinin yaradılması prioritet istiqaməti üzrə hüquqi və fiziki şəxslər üçün vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi məqsədilə bir sıra qanun layihələri hazırlanmışdır. Həmin qanun layihələri əsasında 9 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikasının müvafiq qanunu qəbul edilmiş və 1 yanvar 2026-cı il tarixindən etibarən müəyyən edilmiş güzəştlərin tətbiqinə başlanılmışdır. Qəbul edilmiş dəyişikliklərə əsasən sosial sığorta sahəsində Naxçıvan Muxtar Respublikasının rezidenti olan, qeyri-dövlət sektoruna aid edilən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi iqtisadi fəaliyyət növləri təsnifatına uyğun olaraq bilavasitə istehsal, o cümlədən emal və hasilat sahəsində (neft-qaz sektoru istisna olmaqla) fəaliyyət göstərən sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının müəyyən hissəsinin dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması nəzərdə tutulmuşdur. Qanunvericiliyə əsasən bu subsidiyalaşdırma mexanizmi 1 yanvar 2026-cı il tarixindən 1 yanvar 2036-cı il tarixinədək tətbiq ediləcək və müvafiq hissə və müddətlər üzrə həyata keçiriləcəkdir.

Həmçinin Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış və bilavasitə muxtar respublika ərazisində fəaliyyət göstərən vergi ödəyicilərinə 1 yanvar 2026-cı il tarixindən etibarən 10 il müddətinə bir sıra vergi güzəştlərinin tətbiqinə başlanılmışdır.

Bu güzəştlər istehsal, o cümlədən emal və hasilat fəaliyyəti, topdansatış ticarət, tikinti və xidmət sahələri (əhaliyə göstərilən xidmətlər istisna olmaqla), turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələrində fəaliyyət göstərən vergi ödəyicilərini əhatə edir. Qanunvericiliyə əsasən qeyd olunan fəaliyyət sahələri üzrə Naxçıvan Muxtar Respublikasının rezidentləri mənfəət (gəlir) vergisindən, əmlak vergisindən, torpaq vergisindən və sadələşdirilmiş vergidən azad edilmişdir. Eyni zamanda, muxtar respublika rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) əldə etdiyi dividend gəlirləri də vergidən azad edilmişdir. Bundan əlavə, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə uyğun olaraq sənaye və texnologiyalar parklarının, sənaye məhəllələrinin rezidentləri, həmçinin investisiya təşviqi sənədi almış Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən istehsalın, xidmətlərin, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin həyata keçirilməsi məqsədilə xammal, material, texnika, texnoloji avadanlıq və qurğuların idxalı əlavə dəyər vergisindən azad edilmişdir.

Eyni zamanda, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərə əsasən Naxçıvan Muxtar Respublikasına idxal olunan məhsullar üzrə gömrük tariflərinin 1 yanvar 2026-cı il tarixindən etibarən 10 il müddətinə tənzimlənməsi nəzərdə tutulmuşdur. Həmin dəyişikliklərə əsasən Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye və texnologiyalar parklarının, həmçinin sənaye məhəllələrinin rezidentləri, eləcə də investisiya təşviqi sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında istehsal, xidmət, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin həyata keçirilməsi məqsədilə xammal və materialların, habelə texnika, texnoloji avadanlıq və qurğuların idxalı gömrük rüsumlarından azad edilmişdir.

2025-ci ildə fiskal dayanıqlığın möhkəmləndirilməsi və büdcə balansının qorunması diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasının büdcə göstəriciləri üzrə gəlir və xərclərin icrası davam etdirilmiş, yerli gəlirlərin artırılması, dotasiya asılılığının azaldılması və ayrı-ayrı gəlir mənbələri üzrə yüksək icra səviyyəsinin təmin olunması istiqamətində müsbət nəticələr əldə olunmuşdur.

Büdcə daxilolmalarının strukturunda yerli vergi, rüsum və yığımlar üzrə müsbət dinamika qeydə alınmışdır. 2025-ci ildə cəmi vergi, rüsum və yığımlar 207,4 milyon manat plana qarşı 290,6 milyon manat icra olunaraq 140 faiz səviyyəsində yerinə yetirilmişdir. Vergi orqanları tərəfindən yığılan vergilər 192,0 milyon manat plana qarşı 267,95 milyon manat olmuş və plan 140 faiz icra edilmişdir. Gömrük orqanları üzrə daxilolmalar 12,0 milyon manata qarşı 18,3 milyon manat olmaqla 153 faiz icra olunmuşdur. Digər daxilolmalar da planı xeyli üstələmişdir. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar isə 2,6 milyon manat plana qarşı 2,5 milyon manat olmuş və plan 96 faiz səviyyəsində icra edilmişdir. Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan dotasiya 285,7 milyon manat plana qarşı 160,0 milyon manat təşkil etmiş, icra səviyyəsi 56 faiz olmuşdur. 2025-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri 505,2 milyon manat plana qarşı 445,6 milyon manat icra edilmiş və plan 88,2 faiz səviyyəsində yerinə yetirilmişdir.

Xərclərin 443,8 milyon manatı büdcə xərcləri, 1,8 milyon manatı isə büdcədənkənar xərclər hesabına formalaşmışdır. İqtisadi təsnifat üzrə ən böyük xərc istiqaməti əməyin ödənişi olmuşdur. Bu istiqamət üzrə 318,3 milyon manat plana qarşı 304,1 milyon manat icra olunmuş, icra səviyyəsi 96 faiz təşkil etmişdir. Əməyin ödənişi üzrə xərclər 2024-cü illə müqayisədə 6 faiz artmışdır. Malların, işlərin və xidmətlərin satınalınmasına 80,5 milyon manat plana qarşı 66,3 milyon manat yönəldilmiş və icra səviyyəsi 82 faiz olmuşdur. Qeyri-maliyyə aktivləri üzrə xərclər 69,7 milyon manat plana qarşı 46,7 milyon manat icra olunaraq 67 faiz səviyyəsində yerinə yetirilmişdir.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında bank və bank olmayan kredit təşkilatları tərəfindən iqtisadiyyata yönəldilən kredit qoyuluşlarında, əhalinin bank əmanətlərində və nağdsız ödənişlərin həcmində artım müşahidə olunmuşdur. Bununla yanaşı, bank sektorunun bəzi kəmiyyət göstəricilərində, xüsusilə bank hesabları və ödəniş kartlarının sayında azalma qeydə alınmışdır. 2025-ci ildə muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları tərəfindən iqtisadiyyata yönəldilmiş kredit qoyuluşlarının ümumi həcmi 491,1 milyon manat təşkil etmişdir. Bu göstərici 2024-cü illə müqayisədə 81,1 milyon manat və ya 19,8 faiz çoxdur. Kredit qoyuluşlarının strukturunda ən böyük pay istehlak kreditlərinin payına düşmüşdür. Hesabat dövründə istehlak kreditləri 329,4 milyon manat təşkil etmiş və əvvəlki illə müqayisədə 19,4 milyon manat və ya 6,3 faiz artmışdır. Ən yüksək artım isə biznes kreditləri üzrə müşahidə olunmuşdur. 2024-cü ildə 73,3 milyon manat olan biznes kreditləri 2025-ci ildə 132,1 milyon manata yüksəlmişdir ki, bunun da səbəbi muxtar respublikada sahibkarlıq fəaliyyətinin və iqtisadi aktivliyin genişlənməsidir.

İpoteka kreditləri üzrə kredit qoyuluşları 10,1 milyon manat olmuş, əvvəlki illə müqayisədə 552 min manat və ya 5,8 faiz artmışdır. Kənd təsərrüfatına yönəldilmiş kreditlər isə 19,4 milyon manat təşkil etmiş, bu istiqamətdə 2,2 milyon manat və ya 13 faiz artım qeydə alınmışdır. 2026-cı il 1 yanvar tarixinə muxtar respublika əhalisinin banklardakı əmanətlərinin məbləği milli valyuta ekvivalentində 38,3 milyon manat təşkil etmiş, bu göstərici 2025-ci ilin əvvəli ilə müqayisədə 12,8 milyon manat və ya 50,1 faiz artmışdır. Ən mühüm göstəricilərdən biri nağdsız ödənişlərin həcmində qeydə alınmışdır. Belə ki, 2025-ci ildə nağdsız ödənişlərin həcmi 1 milyard 227,3 milyon manat təşkil etmişdir. Bu da əvvəlki illə müqayisədə 200,9 milyon manat və ya 19,6 faiz çoxdur.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinə 2025-ci il ərzində, ümumilikdə, 13,4 milyon manat məbləğində güzəştli kredit verilmişdir. Bu göstərici 2024-cü illə müqayisədə 9,1 milyon manat və ya 3,1 dəfə çoxdur. Eyni zamanda, maliyyələşdirilmiş layihələrin sayı ötən il 38 olduğu halda, 2025-ci ildə bu say 163-ə çatmış, beləliklə ötən illə müqayisədə 125 layihə və ya 4,3 dəfə artım qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi təsərrüfatında istehsal, ötürmə və təchizat sahələrində fəaliyyət 2025-ci ildə də davam etdirilmiş, elektrik stansiyalarında və şəbəkə infrastrukturunda planlı əsaslı və cari təmir işləri aparılmışdır. Görülən tədbirlər nəticəsində istehlakçıların elektrik enerjisi ilə təminatında dayanıqlığın və keyfiyyətin artırılması istiqamətində müsbət nəticələr əldə olunmuşdur. Hazırda muxtar respublikada ümumi gücü 244,8 meqavat olan elektrik stansiyaları fəaliyyət göstərir. Bu gücün 137 meqavatı istilik elektrik stansiyalarının, 68,4 meqavatı su elektrik stansiyalarının, 38 meqavatı günəş elektrik stansiyalarının, 1,1 meqavatı külək-günəş hibrid elektrik stansiyasının, 0,3 meqavatı isə külək elektrik stansiyasının payına düşür. 2025-ci ildə elektrik stansiyalarında, ümumilikdə, 507,6 milyon kVt/saat elektrik enerjisi istehsal olunmuşdur. Bu göstərici 2024-cü ildə istehsal edilmiş elektrik enerjisindən 22,9 milyon kVt/saat çoxdur.

Muxtar respublikada yaşıl enerji layihələrinin genişləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Ümumilikdə, 7 992 hektar torpaq sahəsi, o cümlədən 5 129 hektar günəş, 2 863 hektar isə külək elektrik stansiyaları üçün nəzərdə tutulmuşdur. Kommunal infrastrukturun yenilənməsi istiqamətində ən mühüm sənədlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 avqust tarixli 685 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026–2030-cu illər üçün Tədbirlər Planı”dır. Müvafiq Tədbirlər Planı çərçivəsində istismar müddəti başa çatmış 110 kV-luq “Ordubad-1”, “Ordubad-2” və “Culfa” elektrik verilişi xətlərinin ikidövrəli yenidən qurulmasına başlanılmış, “Naxçıvan”, “Babək”, “Çeşməbasar” yarımstansiyalarında və Regional Rəqəmsal İdarəetmə Mərkəzinin (SCADA) binasında tikinti işləri davam etdirilmiş, “Yeni Culfa” yarımstansiyasının tikintisi isə başa çatdırılmışdır.

2025-ci ildə muxtar respublikada kənd təsərrüfatı sahəsində fəaliyyət davam etdirilmiş, 5 791,1 hektar sahədə yazlıq əkin aparılmış, bu göstərici ötən illə müqayisədə 117,4 hektar və ya 2,1 faiz artmışdır. Yazlıq əkinlərdə əsas artım dənli-paxlalılar, qarğıdalı, tərəvəz və çoxillik otlar üzrə müşahidə olunmuşdur. Bununla yanaşı, dövlət dəstəyi mexanizmləri davam etdirilmiş, 2025-ci ildə 11 171 istehsalçıya, ümumilikdə, 3 884 476 manat subsidiya verilmişdir. Aqrar kreditləşmə də genişlənmiş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 122 layihə üzrə 2,8 milyon manat aqrar kredit ayrılmışdır. Bundan əlavə, 41 sahibkara 1,9 milyon manatdan çox dəyərdə 49 ədəd texnika və texnoloji avadanlıq satılmışdır.

2025-ci ildə ət istehsalı 21,2 min ton, süd istehsalı 60,7 min ton, yumurta istehsalı 69,7 milyon ədəd, yun istehsalı isə 898,5 ton olmuşdur. Epizootik sabitliyin qorunması məqsədilə 448 yaşayış məntəqəsində monitorinqlər aparılmış, 9 adda xəstəliyə qarşı profilaktik peyvəndləmə və diaqnostik müayinələr həyata keçirilmiş, həmçinin 444 503 kvadratmetr sahədə dezinfeksiya işləri görülmüşdür.

Naxçıvan Muxtar Respublikasında əhalinin içməli suya olan tələbatının ödənilməsi, dayanıqlı su təminatının həyata keçirilməsi və kənd təsərrüfatı torpaqlarının suvarılması məqsədilə, ümumilikdə, 31 su anbarı fəaliyyət göstərir. 2026-cı il 1 yanvar tarixində həmin su anbarlarında, ümumilikdə, 75,8 milyon kubmetr həcmində su ehtiyatı mövcud olmuşdur. 2025-ci il ərzində su istifadəçilərinə 212 milyon kubmetr su verilmiş, təkrar suvarma da daxil olmaqla 142,5 min hektar torpaq sahəsi suvarılmışdır. Su təminatının yaxşılaşdırılması məqsədilə il ərzində yeni içməli su xətləri çəkilmiş, kaptajlar tikilmiş, mövcud xətlərdə və kaptajlarda təmir-bərpa işləri aparılmışdır. Həmçinin subartezian quyularının 39-na yeni nasos quraşdırılmış, ümumilikdə, 566 quyu əsaslı təmir olunmuşdur.

Meliorasiya sahəsində il ərzində 5,4 km uzunluğunda selə qarşı istiqamətləndirici bənd tikilmiş, 279,7 km kanal, 329,5 km ara arx və 64,2 km kollektor lildən təmizlənmişdir. Bundan əlavə, 7,9 km içməli su, 5,4 km suvarma, 1,2 km kanalizasiya xətləri və digər mühəndis qurğuları yenidən qurulmuş, çoxsaylı şəbəkələrdə təmir-bərpa işləri aparılmışdır. Aparılmış meliorativ tədbirlər nəticəsində Şərur rayonunda 373 hektar, Babək rayonunda 414 hektar olmaqla, ümumilikdə, 787 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınmış, şoranlaşmanın qarşısı alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” su ehtiyatlarının artırılması, keyfiyyətli içməli və suvarma suyu ilə təminatın yaxşılaşdırılması, bu sahədə idarəetmənin müasirləşdirilməsi, eləcə də beynəlxalq konvensiyaların tələblərinə uyğun əməkdaşlığın inkişaf etdirilməsi məqsədlərinə xidmət edir.

Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 oktyabr tarixli Sərəncamı qəbul edilmişdir. Bununla əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 noyabr tarixli Sərəncamı ilə “Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2024–2027-ci illərdə Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı”nda icraçısı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti müəyyən edilmiş tədbirlərin yerinə yetirilməsi həvalə edilən dövlət orqanları” təsdiq edilmişdir. Muxtar respublika üzrə aidiyyəti icraçı qurumlar tərəfindən Milli Strategiyada nəzərdə tutulan tədbirlər üzrə nəticə indikatorları və hədəf göstəricilər müəyyənləşdirilmiş, onların illər üzrə bölgüsü hazırlanmışdır.

2025-ci ildə bioloji müxtəlifliyin qorunması, ekoloji nəzarət və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində nəzarət tədbirləri gücləndirilmişdir. İl ərzində 3 411 reyd-yoxlama aparılmış, 204 inzibati xəta aşkarlanmış, ümumilikdə, 244 min manat cərimə tətbiq edilmiş, bunun 58 min manatı icra olunmuşdur. Reyd-yoxlamaların sayı ötən illə müqayisədə 1 591 vahid artmışdır.

Meşələrin və yaşıllıqların artırılması istiqamətində 2025-ci ildə 22,5 hektar meşəsalma, 103 hektar meşəbərpa, 132,3 hektar toxumla əkin və 2,9 hektar toxmacarlıq işləri görülmüşdür. Ümumilikdə, 260,7 hektar sahədə əkin-bərpa tədbirləri aparılmış, 49 min ting əkin dövriyyəsinə daxil edilmişdir. Mineral-xammal ehtiyatlarının istifadəsi üzrə 2025-ci ildə 3 yataq üzrə 29,2 hektar sahə hərraca çıxarılmış, eyni zamanda, bir sıra sahələrə geoloji ayırma statusu verilmiş, filiz və qeyri-filiz faydalı qazıntı yataqlarında geoloji-kəşfiyyat və axtarış-qiymətləndirmə işləri davam etdirilmişdir. Yeraltı suların monitorinqi çərçivəsində 79 tədqiqat quyusu və 298 mineral-termal bulaq üzrə rəqəmsal xəritə hazırlanmış, kadastr məlumatları yenilənmişdir. 2025-ci ildə qida zəncirinə dövlət nəzarətinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, ümumilikdə, 127 yoxlama aparılmışdır. Heyvan sağlamlığının qorunması istiqamətində epizootoloji monitorinqlər aparılmış, nümunələr götürülmüş və heç bir təhlükəli xəstəlik aşkarlanmamışdır.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında əmək münasibətlərinin tənzimlənməsi, məşğulluğun artırılması və işsiz və işaxtaran şəxslərin əmək bazarına inteqrasiyası istiqamətində müvafiq tədbirlər davam etdirilmişdir. Hesabat dövründə həm əmək qanunvericiliyinə nəzarət, həm də aktiv məşğulluq proqramları üzrə işlər genişləndirilmişdir. 2025-ci ildə mərkəzləşdirilmiş elektron informasiya sistemində dövlət sektoru üzrə 13 579, qeyri-dövlət sektoru üzrə 13 403 olmaqla, ümumilikdə, 26 982 yeni əmək müqaviləsi bağlanılmışdır. Dövrün sonuna "Əmək və məşğulluq" altsistemində 54 617 aktiv əmək müqaviləsi mövcud olmuşdur. 2025-ci ildə 663 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Bunlardan 537 nəfəri "DOST" İş Mərkəzi, 126 nəfəri isə Naxçıvan "DOST" İş Mərkəzi vasitəsilə cəlb edilmişdir. Özünüməşğulluq proqramı üzrə il ərzində aktivlə təmin olunanların sayı 564 nəfər olmuşdur.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin ailə üzvlərinin, müharibə veteranlarının və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial müdafiəsi daim diqqətdə saxlanılmışdır. Hesabat dövründə onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial ödənişlərlə təminatı, müalicə və reabilitasiya imkanlarının genişləndirilməsi, eləcə də əlavə sosial dəstək mexanizmlərinin tətbiqi istiqamətində işlər davam etdirilmişdir. 2025-ci il ərzində Naxçıvan şəhərində yerləşən çoxmənzilli yaşayış binasında müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş 3 şəxsə və 1 şəhid ailəsinə mənzil təyin edilmişdir. Hazırda muxtar respublika üzrə 156 imtiyazlı şəxs mənzil uçotundadır. Onlardan 67-si şəhid ailəsi üzvü, 81-i müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs, 5-i Çernobıl qəzası ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs, 3-ü isə gözdən əlilliyi olan şəxsdir. Bu şəxslərdən 61 nəfərin faktiki mənzil ehtiyacı müəyyən edilmişdir.

"Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına Dəstək Fondu" 2025-ci ildə fəaliyyətini davam etdirmişdir. Hesabat dövründə Fond tərəfindən 190 nəfər şəhid ailəsi üzvünə, 75 nəfər müharibə veteranına və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş 135 şəxsə dəstək göstərilmiş, bu məqsədlə 252,7 min manat vəsait xərclənmişdir.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında sosial müdafiə tədbirlərinin əhatə dairəsi genişləndirilmiş, aztəminatlı ailələrin, pensiyaçıların, əlilliyi müəyyən edilmiş şəxslərin və xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatı istiqamətində müvafiq işlər davam etdirilmişdir. 2025-ci ildə ünvanlı dövlət sosial yardımının orta aylıq ailə sayı 2 666, ailə üzvlərinin orta aylıq sayı 11 852 nəfər olmuş, ümumi ödəniş məbləği 14 milyon manat təşkil etmişdir. 2024-cü illə müqayisədə ailə sayı 45 faiz, ailə üzvlərinin sayı 46 faiz, ödənilən məbləğ isə 33 faiz artmışdır. 2025-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq 1 yanvar 2025-ci ilədək təyin edilmiş bütün pensiyalar 8,1 faiz indeksləşdirilmiş, sığortaolunanların fərdi hesablarında qeydə alınmış pensiya kapitalı isə 2,2 faiz artırılmışdır. Muxtar respublikada 45 457 nəfər pensiya alan şəxs olmuş və il ərzində onların ödəniş kartı hesablarına, ümumilikdə, 281,3 milyon manat vəsait köçürülmüşdür. 2025-ci il ərzində 2 872 nəfərə əmək pensiyası təyin olunmuşdur.

2025-ci ildə dövlət büdcəsi vəsaiti hesabına aylıq sosial müavinətlər üzrə 45,9 milyon manat, birdəfəlik sosial müavinətlər üzrə 1,1 milyon manat vəsait ödənilmişdir. Məcburi dövlət sosial sığorta hesabına ödənilən müavinətlərin məbləği 4,9 milyon manat, Prezident təqaüdləri üzrə isə 31,8 milyon manat təşkil etmişdir. İl ərzində sosial müavinət və təqaüdlər üzrə 7 158 nəfərə və ya ümumi təyinatların 79 faizinə proaktiv qaydada təyinat verilmişdir. Məcburi dövlət sosial sığorta hesabına müavinətlər üzrə isə 1 882 nəfərə proaktiv təyinat aparılmışdır. Dövlət büdcəsi hesabına ödənilən sosial müavinət və təqaüdlərin ümumi məbləği 79,4 milyon manat olmuşdur. Bu göstərici 2024-cü illə müqayisədə 12 faiz çoxdur.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında təhsilin bütün pillələri üzrə fəaliyyət davam etdirilmiş, məktəbəqədər təhsilin əhatəliliyinin artırılması, ümumi təhsildə keyfiyyət göstəricilərinin yüksəldilməsi, məktəbdənkənar və peşə təhsilinin genişləndirilməsi, STEAM təhsilinin inkişafı, müəllimlərin sertifikatlaşdırılması və işə qəbulu istiqamətlərində mühüm tədbirlər həyata keçirilmişdir. Hesabat dövründə təhsil infrastrukturunun səmərəli təşkili, elektron qəbul sistemlərinin tətbiqi, monitorinqlərin keçirilməsi və istedadlı şagirdlərin dəstəklənməsi diqqət mərkəzində olmuşdur.

2025-2026-cı tədris ilində muxtar respublikanın ümumi təhsil müəssisələrində 50 500 şagird təhsilə başlamışdır. Tam orta təhsili 4 nəfər qızıl nişanla başa vurmuş, 380 məzun 500-700 bal intervalında nəticə göstərmiş, 2 623 nəfər ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuşdur. Əvvəlki illə müqayisədə qəbul olunanların sayı 345 nəfər və ya 15 faiz artmışdır. 5 məzun Prezident təqaüdünə layiq görülmüşdür.

2025-ci ildə Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin əlçatanlığının artırılması, diaqnostik və müalicə imkanlarının genişləndirilməsi, sosial əhəmiyyətli xəstəliklər üzrə təminatın gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Əhalinin təcili tibbi yardım xidmətinə əlçatanlığının artırılması və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə 52 təcili tibbi yardım avtomobili alınaraq muxtar respublikaya gətirilmişdir.

Hesabat dövründə ambulator və stasionar xidmətlərin təşkili, ixtisaslaşmış tibbi yardım, sanitariya-epidemioloji nəzarət, dərman təminatı, tibbi ekspertiza və profilaktik tədbirlər səhiyyə sisteminin əsas fəaliyyət istiqamətlərini təşkil etmişdir. 2025-ci ildə muxtar respublikanın tibb müəssisələrinin ambulatoriya bölmələrinə, ümumilikdə, 1 milyon 39 min 496 müraciət qeydə alınmışdır. Bu göstərici 2024-cü illə müqayisədə 12 faiz az olmuşdur. 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta sahəsi üzrə, ümumilikdə, 62,7 milyon manat maliyyə vəsaiti daxil olmuşdur. Bu məbləğin 28,8 milyon manatı Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən daxilolmaların, 31,7 milyon manatı tibbi sığorta haqları üzrə yerli yığımların, 1,4 milyon manatı depozit gəlirlərinin, 620 min manatı isə overnayt hesabı üzrə faiz gəlirlərinin payına düşür.

2025-ci ildə mədəniyyətin inkişafı, mədəni irsin qorunması, teatr, musiqi və incəsənətin digər sahələrinin inkişafı diqqət mərkəzində saxlanılmış, müxtəlif formatlarda tədbirlər, sərgilər, konsertlər, tamaşalar və maarifləndirici layihələr təşkil edilmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, mədəni irsin qorunması və tariximizin əbədiləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 22 may 2025-ci il tarixli Sərəncamı ilə Möminə xatun türbəsinin bərpası və konservasiyası üçün Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 milyon manat vəsait ayrılması dövlətimizin milli-mədəni irsimizə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Bununla yanaşı, orta əsrlər Azərbaycan memarlığının dahi nümayəndəsi Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2025-ci il tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması qərara alınmışdır. Bu addımlar həm mədəni yaddaşımızın möhkəmləndirilməsi, həm də gənc nəsildə milli kimlik və tarixi irsə bağlılığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında gənclərin dövlətçilik ənənələrinə sədaqət ruhunda formalaşdırılması, intellektual potensialının artırılması və asudə vaxtlarının səmərəli təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Hesabat dövründə muxtar respublika idmançıları tərəfindən ölkə və beynəlxalq səviyyəli yarışlarda, ümumilikdə, 444 medal qazanılmışdır. Bu medallardan 198-i qızıl, 129-u gümüş, 117-si bürünc olmuşdur. 2024-cü illə müqayisədə ümumi medal sayı 199-dan 444-ə yüksəlmişdir ki, bu da idman nəticələrində əhəmiyyətli irəliləyişin göstəricisidir. Bundan əlavə, muxtar respublikanın şəhər və qəsəbələrində sadə tipli açıq hava idman qurğularının qurulması istiqamətində işlər davam etdirilmiş, hesabat dövründə 11 sadə idman qurğusu quraşdırılmışdır.

Hesabat ili ərzində sərnişin və yük daşımalarının təşkili daim diqqətdə saxlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2025-ci il 4 mart tarixli Sərəncamla Naxçıvan şəhərində sərnişindaşımaların yalnız elektrik mühərrikli avtobuslarla təşkili məqsədilə 60 ədəd elektrobusun alınması, enerjidoldurma cihazlarının quraşdırılması və müvafiq depo infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə 33 milyon 449 min manat vəsait ayrılmışdır. Qəbul olunmuş bu qərar Naxçıvan şəhərində nəqliyyat sisteminin daha müasir, təhlükəsiz və ekoloji cəhətdən təmiz əsaslar üzərində qurulmasına xidmət edir.

2025-ci il ərzində muxtar respublikada rabitə və poçt xidmətlərinin davamlılığı təmin edilmiş, əhalinin telefon, internet, elektron imza və poçt xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində işlər aparılmışdır. İl ərzində 647 yeni sabit şəbəkə telefon nömrəsi istifadəyə verilmiş, 2 148 yeni abonent internetlə təmin olunmuşdur.

2025-ci ildə muxtar respublikada tikinti sektoru iqtisadi və sosial inkişafın əsas istiqamətlərindən biri olaraq diqqətdə saxlanılmış, yaşayış, sosial, inzibati, enerji, qaz, rabitə və yol infrastrukturu üzrə çoxsaylı layihələr icra edilmişdir. Naxçıvan şəhərində “Yaşıl ada evləri”, “Nakhchivan Residence” yaşayış komplekslərinin və “DOST” Mərkəzinin tikintisi, eyni zamanda, Möminə xatun türbəsinin bərpası üzrə işlər davam etdirilmiş, küçələrin işıqlandırılması və Əliabad qəsəbədaxili avtomobil yollarının əsaslı təmiri üzrə işlərin müəyyən hissəsi tamamlanmışdır.

Rayonlarda da yaşayış binaları, vətəndaş qəbulu məntəqələri, məktəb binaları, suvarma və nasos stansiyaları, tarixi abidələrin bərpası, kənddaxili və rayonlararası yolların əsaslı təmiri istiqamətində işlər davam etdirilmiş və bir sıra layihələr tamamlanmışdır.

Hesabat dövründə muxtar respublikada cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin qorunması, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması, inzibati xətaların aşkarlanması və profilaktik tədbirlərin gücləndirilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır. 2025-ci il ərzində hüquq mühafizə orqanları üzrə, ümumilikdə, 581 cinayət faktı qeydə alınmışdır. Bu göstərici 2024-cü illə müqayisədə 89 fakt və ya 18,1 faiz çoxdur. Qeydə alınmış cinayətlərin 98 faizi açılmış, cinayətlər nəticəsində dəymiş 1,3 milyon manat maddi ziyandan 99,6 faizi istintaq dövründə ödənilmişdir. Axtarışda olan şəxslərin müəyyən edilməsi üzrə nəticəlilik 90,2 faiz təşkil etmişdir.

2025-ci il ərzində mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın və texniki təhlükəsizlik, eləcə də xilasetmə istiqamətlərində fəaliyyət davam etdirilmişdir. Xilasetmə işləri çərçivəsində naməlum döyüş sursatının zərərsizləşdirilməsi, civə dağılması, yol-nəqliyyat hadisəsi və digər vəziyyətlər üzrə əməliyyatlar həyata keçirilmişdir. Sənaye və dağ-mədən sahələrində təhlükəsizlik üzrə 252 müəssisədə yoxlamalar aparılmış, 124 lift, 258 qurğu və avadanlıq, 149 qaz təsərrüfatı obyekti üzrə nəzarət tədbirləri görülmüşdür. Tikinti sahəsində 469 obyekt üzrə layihə sənədlərinə baxılmış, 919 dövlət nəzarəti tədbiri keçirilmiş, 62 obyektə istismara hazırlıq aktı verilmiş və 48 obyekt üzrə qanunsuz tikinti işlərinin dayandırılması barədə qərar qəbul edilmişdir.

Hörmətli deputatlar,

Təqdim olunan hesabat göstərir ki, 2025-ci ildə muxtar respublikada davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, xidmətlərin keyfiyyətinin artırılması və infrastrukturun yenilənməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Nazirlər Kabineti tərəfindən qarşıdakı dövrlərdə də muxtar respublikanın inkişafı üçün cənab Prezident İlham Əliyevin müəyyənləşdirdiyi istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi prioritetləşdirilmişdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilmiş dəyişikliklərdən irəli gələn məsələlərin təmin edilməsi operativ şəkildə icra ediləcəkdir.

Bununla yanaşı, "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiqi, eləcə də "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından irəli gələn tədbir və layihələrin vaxtında və keyfiyyətlə icrası qarşımızda olan ən mühüm tapşırıqlardır.

Muxtar respublikanın blokada şəraitinin aradan qaldırılmasında xüsusi əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin muxtar respublika ərazisindən keçən hissəsində dəmir yolu, avtomobil yolu, yüksəkgərginlikli elektrik verilişi xətlərinin çəkilişi, həmçinin digər kommunikasiya xətlərinin layihəsinin sürətlə icrası məqsədilə torpaq, əmlak, xammal təminatı və digər təşkilati məsələlərin həlli Nazirlər Kabineti tərəfindən operativ icra olunacaqdır.

Bunlarla yanaşı ictimai nəqliyyatın müasir tələblərə uyğun qurulması məqsədilə şəhərlərarası marşrut xətlərinin yenidən formalaşdırılması, iri yaşayış məntəqələri arasında sərnişindaşıma xidmətlərinin təkmilləşdirilməsi və avtobus parkının yenilənməsi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunda bərpa və konservasiya işlərinin aparılması, xalq sənətkarlığının dirçəldilməsi və ərazinin turizm məkanına çevrilməsi məqsədilə müvafiq konsepsiyanın hazırlanması işləri davam etdirilir.

2026-cı ildən etibarən sahibkarlıq fəaliyyətinə 10 il müddətinə tətbiq olunan güzəştlər sahibkarlığın inkişafını stimullaşdırmaqla işsizliyin azaldılması və yeni iş yerlərinin yaradılması üçün geniş imkanlar yaradır. Bu istiqamətdə Nazirlər Kabineti tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Əhalinin mənzilə olan tələbatının ödənilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə çoxmənzilli yaşayış binalarının, o cümlədən güzəştli mənzillərin tikintisi istiqamətində tədbirlər davam etdirilir.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bundan sonra da üzərinə düşən vəzifələri yüksək məsuliyyət hissi ilə yerinə yetirərək, muxtar respublikanın davamlı inkişafı, vətəndaşların rifahının yüksəldilməsi və qarşıda duran strateji hədəflərin uğurla həyata keçirilməsi istiqamətində bütün imkanlarını səfərbər edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

*(Alqışlar.)*

**Sədrlik edən.** Hörmətli Cabbar müəllim, hesabatı ətraflı şəkildə təqdim etdiyinizə görə təşəkkür edirik.

Hörmətli həmkarlar, hesabatı dinlədik. İndi isə müzakirələrə keçirik.

İlk olaraq komitələrdəki ümumi fikirləri çatdırmaq üçün söz Ali Məclisin komitə sədrlərinə verilir.

Hesabatla bağlı çıxış etmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli iclas iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” 11 mart 2026-cı il tarixdə Hüquq siyasəti komitəsinə daxil olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə əsasən Nazirlər Kabinetinin hesabatına Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin komitələrinə rəy verilməsi üçün təqdim edilir.

Qəbul edilmiş rəyə əsasən hesabat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə əsasən hazırlanmış “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”na Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Ali Məclisin Hüquq siyasəti komitəsinin 31 mart 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə baxılmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunsun.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

İndi isə söz İqtisadi siyasət komitəsinin sədri Mübariz Bayramova verilir.

Buyurun, Mübariz müəllim!

**M.Bayramov,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Baş nazir!

Hörmətli deputatlar və sessiya iştirakçıları!

İlk növbədə hər birinizi salamlayıram və nəzərinizə çatdırmaq istəyirəm ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Ali Məclisin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisdə baxılmamışdan əvvəl Ali Məclisin İqtisadi siyasət komitəsinə rəy verilməsi üçün təqdim edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə əsasən hazırlanmış "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı"na Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Ali Məclisin İqtisadi siyasət komitəsinin 1 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə baxılmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsini nəzərə alaraq Ali Məclisin İqtisadi siyasət komitəsi qeyd edir ki, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunsun.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Mübariz müəllim!

Söz Sosial siyasət komitəsinin sədri Zeynəb Quliyevaya verilir.

Buyurun, Zeynəb xanım!

**Z.Quliyeva,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları, hamınızı salamlayıram!

İcazənizlə, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı"na dair rəyini diqqətinizə çatdırıram.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə əsasən hazırlanmış "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı"na Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Ali Məclisin Sosial siyasət komitəsinin 3 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə baxılmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsini nəzərə alaraq Ali Məclisin Sosial siyasət komitəsi qeyd edir ki, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunsun.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Zeynəb xanım!

İndi isə söz Humanitar siyasət komitəsinin sədri Canməmməd Canməmmədova verilir.

Buyurun, Canməmməd müəllim!

**C.Canməmmədov,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli iclas iştirakçıları, hamınızı salamlayıram!

İcazənizlə, “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”na uyğun olaraq Humanitar siyasət komitəsinin rəyini diqqətinizə çatdırıram.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə əsasən hazırlanmış “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”na Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.2-ci maddəsinə uyğun olaraq Ali Məclisin Humanitar siyasət komitəsinin 2 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının nümayəndələrinin iştirakı ilə baxılmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsini nəzərə alaraq Ali Məclisin Humanitar siyasət komitəsi qeyd edir ki, “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunsun.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Canməmməd müəllim!

Deputatlardan çıxış etmək istəyən varmı?

Buyurun, Məmməd müəllim!

**M.Məmmədov,** *Ali Məclisin İntizam komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli iclas iştirakçıları!

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi sosial-iqtisadi strategiya müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Məhz Ulu Öndərin siyasəti sayəsində muxtar respublikanın inkişafının və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələr qurulmuş, sonrakı dövr üçün ölkəmizin bütün regionları kimi Naxçıvanın da sosial-iqtisadi inkişafında möhkəm bünövrə formalaşdırılmışdır.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədi ilə ölkə başçısı tərəfindən imzalanmış “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın sosial-iqtisadi inkişafı üçün yol xəritəsidir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı göstərir ki, ötən il ümumi daxili məhsulun həcmi, büdcəyə vergi daxilolmaları, ticarət və xidmətlər sektoru, sənaye, nəqliyyat, xarici ticarət, investisiya qoyuluşları, həmçinin sosial təminat və məşğulluq sahələri üzrə müsbət dinamika müşahidə olunub. Belə ki, ümumi daxili məhsulun həcmi 2024-cü illə müqayisədə 3,8 faiz artmış, daxili bazarda pərakəndə ticarət dövriyyəsi və əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində də artım müşahidə olunmuşdur. Eyni zamanda, əsas kapitala yönəldilən investisiyaların həcmi əhəmiyyətli dərəcədə yüksələrək iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına töhfə vermişdir. Büdcə gəlirləri 290,6 milyon manat olmaqla 2024-cü illə müqayisədə 11,3 faiz artmışdır.

Beləliklə, muxtar respublikada daha dayanıqlı və davamlı gələcək qurulması istiqamətində iqtisadi artımın sürəti, onun keyfiyyəti və başlıca təkanverici amillərin hərəkətə gətirilməsi inkişafın gündəliyində duran başlıca vəzifə kimi qarşıya qoyulmuşdur.

Qeyd olunanlar deməyə əsas verir ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyəti uğurlu olmuş, görülmüş işlər muxtar respublikanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Məmməd müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Teymur müəllim!

**T.Rzayev.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Baş nazir!

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Qeyd etmək istəyirəm ki, 2025-ci il ərzində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən görülən işlər iqtisadi sabitliyin qorunmasına, istehsal potensialının genişləndirilməsinə və sosial sahələrin inkişafına yönəlmişdir.

Hesabat dövründə iqtisadiyyatın bir çox sahələri üzrə müsbət nəticələr əldə olunmuş, yerli istehsalın artırılması və daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

Sahibkarlara təqdim olunan güzəştli kreditlər, vergi və gömrük sahəsində aparılan islahatlar, biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər iqtisadi fəallığın artmasına və yerli istehsalın genişlənməsinə şərait yaratmışdır. Bu tədbirlər həm daxili bazarın təminatına, həm də ixrac imkanlarının artırılmasına müsbət təsir göstərmişdir.

2025-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə əsas makroiqtisadi göstəricilər müsbət dinamikanı əks etdirmişdir. Hesabat ilində sənaye məhsulu istehsalı artmış, eyni zamanda ixracın əhəmiyyətli dərəcədə yüksəlməsi yerli istehsalın rəqabət qabiliyyətinin və ixrac potensialının genişləndiyini nümayiş etdirmişdir.

Eyni zamanda dövlət idarəçiliyində səmərəliliyin artırılması, müvafiq islahatların həyata keçirilməsi və rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi istiqamətində tədbirlər davam etdirilmiş, elektron xidmətlərin əhatə dairəsi genişləndirilmişdir.

Bütövlükdə həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında müsbət dinamika qorunmuş, iqtisadi potensialın möhkəmləndirilməsi və əhali rifahının yaxşılaşdırılması istiqamətində mühüm nəticələr əldə olunmuşdur.

Həyata keçirilən islahatlar və inkişaf layihələri gələcək illərdə də muxtar respublikanın dayanıqlı inkişafına, iqtisadi imkanlarının genişlənməsinə və əhalinin həyat səviyyəsinin yüksəlməsinə xidmət edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Teymur müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Arzu müəllim!

**A.Abdullayev,** *Ali Məclis sədrinin müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli hökumət üzvləri, deputatlar və media nümayəndələri!

Təbii ki, mən də gündəlikdə yer alan birinci məsələ - hökumətin hesabatı ilə bağlı fikirlərimi bölüşmək istəyirəm. Baxmayaraq ki, komitələrdə geniş şəkildə müzakirə olunub, suallar və fikirlər bildirilib, amma mən hər hansı bir komitənin üzvü olmadığımdan plenar iclasda fikirlərimi sizinlə bölüşmək istəyirəm.

Təbii ki, hesabatın Ali Məclisdə dinlənilməsi və müzakirə edilməsi Ali Məclis və Nazirlər Kabineti arasında təmasların artması, sosial-iqtisadi inkişaf mərhəlisinin obyektiv araşdırılması və həlli baxımından mühüm əhəmiyyət kəsb edir.

Hesabat muxtar respublikamızın sosial-iqtisadi inkişafı ilə bağlı mühüm dövlət sənədidir, hansı ki, bu illər ötsə də arxivdə qalacaq və bu istiqamətdə müxtəlif tədqiqatlarda istifadə olunacaqdır. Əminəm ki, parlament və hökumət arasında hesabatlılıq bütövlükdə muxtar respublika və sakinlərimiz üçün faydalı olacaq. Həmçinin möhtərəm Prezident cənab İlham Əliyevin qarşımıza qoyduğu əsas vəzifə - şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, vətəndaşa yönəlik siyasət, eyni zamanda məsuliyyət olduqca vacib məsələlərdir. İnanıram ki, bu təmaslar daha da keyfiyyətli işlər üçün əsas başlanğıc yaradacaq və davamlı olacaqdır.

İdarəçilikdə səmərəliliyin artırılması prosesində bir sıra mühüm aspektlər özünü göstərir ki, onlardan biri məhz hesabatın şəffaflığıdır. Məhz elə bu gün hökumətin hesabatını dinlədik. Hesabatla əvvəlcədən geniş şəkildə tanış olmuşuq. Hesabatın həm çap, həm elektron versiyası kifayət qədər əhatəli və müasir dövrün əsas aspektləri, klaster diaqramları nəzərə alınmaqla təhlili asanlaşdıran bir formada izah olunmuşdur. Bu, hesabatın hər bir vətəndaş, xüsusilə, deputatlar tərəfindən asanlıqla təhlil edilməsinə imkan yaradır, bu baxımdan hesabatı uğurlu hesab etmək olar.

Eyni zamanda çox vaxt itirmədən bəzi qeydlər etmişəm, qısa olaraq onları da diqqətinizə çatdırmaq istəyirəm. Hörmətli Baş nazir çıxışında da müəyyən məqamlara toxundu. 2025-ci ildə əhatəli, əhəmiyyətli və uğurlu bir hesabatın ortaya çıxmasında təbii ki, hökümət rəhbəri başda olmaqla hökümət üzvlərinin və vətəndaşların mühüm əməyi var. Əlbəttə ki, bunları həm plenar, həm komitə iclaslarında, eyni zamanda mediada diqqətə çatdırmaq ən vacib məsələlərdən biridir.

Müsbət tərəflər çoxdur, amma qısa olaraq bəzi məqamları qeyd etmək istəyirəm. Hesabat zəngin cədvəl və təhlillərlə, klaster diaqramları ilə əhatə olunmuşdur, bu da müqayisə etməyə, mövcud vəziyyəti aşkar görməyə geniş şəkildə imkan verir.

Makroiqtisadi vəziyyətə nəzər saldıqda, tikinti sektorunda və xarici ticarət dövriyyəsində ixracın ötən illərlə müqayisədə artımı, həmçinin qida təhlükəsizliyi istiqamətində görülən məhdudlaşdırıcı tədbirlər əhali arasında da kifayət qədər məmnunluq yaratmışdır.

İctimai asayişin qorunması baxımından cinayətlərin və inzibati xətaların ortalama 98 faizi açılmışdır. Ötən il bu göstərici 96 faiz olduğu halda, cari ildə 98 faiz icra edilməsi təhlükəsizliyin təmin olunması və etibarlılıq baxımdan olduqca uğurlu nəticədir.

Dövlət maliyyəsi və fiskal siyasətdə büdcə gəlirlərinin plan üzrə 40 faiz icra olunması və ötən illə müqayisədə 12 faiz artması, büdcə xərclərinin 64 faizinin yerli gəlirlər hesabına maliyyələşməsi ötən hesabat ili ilə müqayisədə uğurlu başlanğıcın davamlı artımından xəbər verir.

İnsan kapitalına nəzər saldıqda 500-700 bal intervalında nəticə göstərənlərin sayı 16 faiz, olimpiadalarda və müsabiqələrdə 15 faiz, peşə təhsili müəssisələrində 14 faiz artım müşahidə olunması təhsil sahəsində olduqca sevindirici haldır.

Fürsətdən istifadə edərək deputat həmkarlarımdan xahiş edirəm ki, hesabatda da qeyd edildiyi kimi, istedadlı gənclərin dəstəklənməsi məqsədilə təmsil olunduqları seçki dairələrinə uyğun olaraq olimpiada mükafatçılarını və uğurlu nəticə göstərən şagirdləri daim diqqətdə saxlasın və onlara dəstək olsunlar.

Ötən dövrlərdə səhiyyə sahəsində həyati əhəmiyyətli avadanlıqların əsas hissəsi işləməmişdir. Bu il avadanlıqların bərpası, işlək vəziyyətə gətirilməsi və yeni avadanlıqların alınması əhalinin sağlamlığı ilə bərabər səhiyyə sahəsinə inamı daha da artırmış olur.

Hörmətli Baş nazirin də qeyd etdiyi kimi, 2025-ci ildə sahibkarlıq fəaliyyətinə 13,4 milyon manat kredit ayrılmışdır və bu, ötən illə müqayisədə 125 layihə çoxdur. 125 rəqəm olaraq kiçik görünə bilər, amma layihə sayı baxımından bu iqtisadi və sosial sahənin canlanması deməkdir. Təbii ki, bunlar müsbət göstəricilərdir və bu istiqamətdə inkişafın davam etdirilməsi mümkündür.

Hesabatla yanaşı bugünkü çıxışdan da bəzi qeydlərimi diqqətə çatdırmaq istəyirəm. Bu qeydlər gələcəkdə hesabatın daha da təkmilləşdirilməsinə fayda verə bilər.

İqtisadi aktivliyin müşahidə olunduğu vəziyyətdə bank hesabları və ödəniş kartlarının sayının azalması, nağdsız ödənişlərin təşviqi və rəqəmsal bank xidmətlərinin genişləndirilməsi iqtisadi aktivliyə töhfə verə bilər. Bununla yanaşı, bəzi sənaye məhsullarının istehsalının azalması, xüsusilə çınqıl, daş-qum, xırda çay daşı, eyni zamanda qida məhsulları üzrə azalma nəzarətə götürülməli, yerli istehsalçılara dəstək tədbirləri davam etdirilməlidir.

Elektrik enerjisi istehsalında, xüsusən alternativ enerji mənbələrinə investisiyaların artırılması və mövcud infrastrukturun modernləşdirilməsi diqqətdə saxlanmalıdır. Ümumilikdə, hesabat formal baxımından güclü və standartlara uyğun hazırlansa da, onun analitik dəyərinin artırılması, qısa nəticə və tövsiyələrin daha aydın təqdim olunması sənədin effektivliyini gələcəkdə daha da yüksəldə bilər.

Dövlət şəhərsalma nəzarəti ilə bağlı edilən müraciətlərin sayında azalma və imtina verilmiş müraciətlərin artma səbəbləri qanunvericilik baxımından nəzərə alınmaqla diqqətdə saxlanılmalıdır. Eləcə də investisiya proqramlarından bəzilərinin tam icra edilməməsi xüsusilə diqqət mərkəzində olmalıdır.

Rəqəmsal texnologiya və nəqliyyat sahəsində mühüm və uğurlu işlər həyata keçirilmişdir və hesabatda bununla bir daha tanış olduq. Hörmətli Baş nazirin hesabatında da qeyd olunduğu kimi, internet xidmətində keyfiyyət və sürətin artırılması istiqaməti qurum tərəfindən 2026-cı ildə də prioritet sahə kimi diqqətdə saxlanılmalıdır. Ümumilikdə, hesabatda təqdim olunan nəticələr regionda makroiqtisadi sabitliyin qorunduğunu və inkişafın davam etdiyini göstərir. Real sektorun gücləndirilməsi, məşğulluğun artırılması və qeyri-dövlət sektorunun aktivliyinin yüksəldilməsi prioritet istiqamət kimi bu il də diqqətdə saxlanılacaqdır.

Ali Məclisin deputatları tərəfindən 2025-ci ildə irəli sürülmüş təklif və tövsiyələr barədə məlumatlar hesabatda ayrıca bölmə kimi təqdim olunsa və icrası izlənilsə onun effektivliyini daha da artıra bilər.

Təbii ki, bütün bu qeydlərə rəğmən çıxışımın əvvəlində də bildirdiyim kimi, hesabat bütövlükdə qəbul ediləndir və qeydlərimiz yalnız onun daha təkmil hazırlanmasına töhfə verməyə xidmət edir. Bu baxımdan, hesabatın bütövlükdə qəbul edilməsinə tərəfdar olduğumu bildirir, hökumətin bundan sonrakı fəaliyyətində uğurlar arzu edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Arzu müəllim!

Hesabat ilə əlaqədar deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

Hesabatla bağlı deputatlardan sualı olan varmı?

Buyurun, Vüsal müəllim!

**V.Məmmədzadə,** *Ali Məclisin İntizam komissiyasının sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Baş nazir!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”nı təhlil etdikdə məlum olmuşdur ki, hesabat dövrü ərzində muxtar respublikada istehsal olunmuş 402 milyon 251 min 900 manatlıq kənd təsərrüfatı məhsulunun 223 milyon 63 min 300 manatı bitkiçilik, 179 milyon 188 min 600 manatı isə heyvandarlıq sahəsi üzrə olmuşdur. İstehsal olunmuş kənd təsərrüfatı məhsulu 2024-cü illə (382 206 200) müqayisədə 2,8 faiz azalmışdır. Bu azalmanın səbəbi barədə məlumat verilməsini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Vüsal müəllim!

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Nuray xanım!

**N.Əliyeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli sessiya iştirakçıları!

İcazənizlə, mən də təklifimi səsləndirmək istəyirəm.

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”na nəzər saldıqda burada 2025-ci il üzrə ötən dövr ərzində 55,15 km uzunluğunda avtomobil yollarının yenidən qurulması və ya əsaslı təmir olunması ilə bağlı məlumat verilmiş, lakin əvvəlki illə müqayisəsi aparılmamışdır. Bu isə təhlilin aparılmasına imkan vermir. Buna görə əvvəlki ilin göstəricilərinin də bura daxil edilməsini təklif edirəm.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Nuray xanım!

Əlavə sualı olan varmı?

Buyurun, Aysel xanım!

**A.Dünyamalıyeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Demoqrafik göstəricilər üzrə 2025-ci ildə 3 437 doğuş qeydiyyata alınmış, vətəndaşlıq vəziyyəti və notariat göstəriciləri üzrə 2025-ci ildə 2 375 doğum sayı qeydiyyata alınmış, stasionar xidmət bölməsində isə 2025-ci ildə muxtar respublika üzrə doğulan uşaqların sayı 2 130 olaraq qeyd edilmişdir.

Eyni fərq muxtar respublika üzrə ölüm sayında da mövcuddur. Hesabatda qeyd edilən rəqəmlər arasındakı fərq hansı səbəblərdən qaynaqlanır?

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Aysel xanım!

Deputatlardan başqa sualı olan varmı?

Buyurun, Gülxarə xanım!

**G.Tarverdiyeva.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli deputatlar və kabinet üzvləri!

Hesabatla tanış olarkən musiqi təhsili sahəsində əldə olunan nəticələrlə bağlı belə bir faktla rastlaşdım, 2024-2025-ci tədris ili üzrə musiqi sahəsində müqayisədə 2025-2026-cı tədris ilində muxtar respublika səviyyəli müsabiqələrdə fərqlənən şagirdlərin sayında 97,9 faiz azalma (2024-cü il 141 nəfər, 2025-ci il 3 nəfər) qeyd olunmuşdur. Belə ki, 2024-cü ildə 141 nəfər, 2025-ci ildə 3 nəfər fərqlənən şagird olmuşdur. Bu qədər kəskin azalmanın səbəbi müsabiqələrin sayının azalması, yoxsa qiymətləndirmə meyarlarının sərtləşməsi ilə bağlıdır?

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Gülxarə xanım!

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Pərvin xanım!

**P.Nəcəfsoy.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Hər kəsi salamlayıram və icazənizlə, sualımı ünvanlamaq istəyirəm.

Deputat seçildiyim Şərur rayonunun Çomaxtur kəndində yaşayan vətəndaşlar tərəfindən kənddaxili avtomobil yolunun əsaslı təmiri ilə bağlı mənə tez-tez müraciətlər ünvanlanır. Bu baxımdan, həmin yolun əsaslı təmirinin hökumət tərəfindən nə vaxt həyata keçirilməsinin nəzərdə tutulduğu barədə məlumat verilməsini xahiş edirəm.

Sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Pərvin xanım!

Əlavə sualı olan varmı?

Buyurun, Sevinc xanım!

**S.Həsənova.** Hörmətli Bəxtiyar müəllim!

Mən də bir sualı diqqətinizə çatdırmaq istəyirəm.

Xidmət sektorunun ölkə iqtisadiyyatında 71,6 faiz paya malik olması nəzərə alınaraq, bu sektorun inkişafı təhsil sistemində hansı ixtisaslara, bacarıqlara və peşə istiqamətlərinə daha çox tələbat yaradır? Eyni zamanda, bu ixtisasların əmək bazarında rolu və gələcək perspektivləri nə dərəcədə əhəmiyyətlidir?

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Sevinc xanım!

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Mövlan müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Baş nazir!

İcazənizlə, hesabatla bağlı iki sualımı diqqətinizə çatdırıram.

Hesabat dövrü ərzində muxtar respublika büdcəsinin funksional təsnifat üzrə xərclərinin bəzi sahələrdə icra faizi planla müqayisədə xeyli aşağı olmuşdur. Məsələn, kənd təsərrüfatı – 69 faiz, ətraf mühitin mühafizəsi – 72 faiz. Bunun əsas səbəbləri nələrdir və həmin sahələrdə planın tam icrası üçün hansı tədbirlər nəzərdə tutulur?

İkinci sualım isə 2025-ci ildə muxtar respublika büdcəsinin iqtisadi təsnifat üzrə subsidiyalarla bağlı xərclərin 2024-cü illə müqayisədə 36 faiz azalması və icra faizinin cəmi 67 faiz olması nə ilə bağlıdır? Bu sahədə planlaşdırmanın aşağı icra olunmasının əsas səbəbləri hansılardır?

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Mövlan müəllim!

Başqa sualı olan varmı?

Buyurun, Əli müəllim!

**Ə.Həşimov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Mən də öz növbəmdə hər kəsi salamlayıram və bir təklifimi səsləndirmək istəyirəm.

2025-ci ilə dair Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatında əksini tapan statistik göstəricilər muxtar respublikanın 2025-ci ildəki inkişaf göstəricilərini tam şəkildə əhatə edir. Diqqəti cəlb edən istiqamətlərdən biri də dövlət xidmətlərinin elektronlaşdırılmasıdır. İdarəetmədə effektivliyi artırmağa, vətəndaş məmnunluğuna hesablanmış xidmətlərin rəqəmsallaşması sahəsində görülən işlərin nəticəsidir ki, ölkə üzrə mövcud olan 150 elektron xidmətdən 132-si Naxçıvan Muxtar Respublikasında tətbiq olunmuşdur. Ümumilikdə, xidmətlərin elektronlaşdırılması sahəsində görülən işlər vətəndaş məmnunluğuna hesablanmış dövlət siyasətinin muxtar respublikada uğurlu icrasının göstəricisidir. Təklif edərdik ki, elektronlaşdırılan xidmətlər haqqında əhalinin məlumatlandırılmasına diqqət biraz da artırılsın. Çünki elektronlaşdırılan xidmətlər haqqında əhalinin məlumatı bır sıra hallarda olmur, insanlar bu xidmətlərdən lazımi şəkildə istifadə edə bilmir.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Əli müəllim!

Əlavə sualı olan varmı?

Buyurun, Üzeyir müəllim!

**Ü.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Mən də "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" ilə tanış oldum. Hörmətli kabinet üzvlərinə bir sual ünvanlamaq istəyirəm.

Muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 2025-ci ildə 1,9 faiz azalaraq 22 milyon 514 min manat təşkil edib. Həmçinin ümumi daxili məhsulda informasiya və rabitə xidmətlərinin xüsusi çəkisi 1,5 faiz-dən 1,3 faiz-ə enib. Bu azalmanın baş verməsinin səbəbləri nədir?

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Üzeyir müəllim!

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Hörmətli iclas iştirakçıları!

Mən də "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı" ilə tanış oldum və hesabatdan irəli gələn bir sualı ünvanlamaq istəyirəm.

2025-ci il üzrə hesabatda göstərilir ki, ambulator müraciətlərin sayı 2024-cü illə müqayisədə 12 faiz azalmış, eyni zamanda laborator müayinələrin sayında isə 66 faiz kəskin azalma müşahidə olunmuşdur. Bununla yanaşı, təcili tibbi yardım çağırışları 21 faiz artmışdır.

2025-ci il üzrə ambulator müraciətlərin və laborator müayinələrin azalması fonunda təcili tibbi yardım çağırışlarının 21 faiz artmasının əsas səbəbləri nə ilə izah olunur və bu tendensiya səhiyyə xidmətlərinin əlçatanlığı və keyfiyyəti baxımından hansı problemlərə işarə edir?

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim!

Başqa sualı olan varmı?

Buyurun, Ramiz müəllim!

**R.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

Naxçıvan Muxtar Respublikasının büdcəsində sadələşdirilmiş vergi üzrə daxilolmalar 2025-ci ilin proqnoz göstəriciləri ilə müqayisədə 8 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 10 faiz azalıb. Proqnozun icra olunmamasının səbəbləri nədir?

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Ramiz müəllim!

Əlavə sualı olan varmı?

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Cabbar müəllim!

"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı"nı müzakirə edərkən görülən işləri yüksək qiymətləndirmək üçün əlimizdə kifayət qədər əsaslar vardır. Hesabatda aydın şəkildə görünür ki, ötən il ərzində muxtar respublikada sosial-iqtisadi inkişafın təmin olunması, əhalinin rifahının yaxşılaşdırılması və idarəetmənin səmərəliliyinin artırılması istiqamətində mühüm addımlar atılmışdır. Nazirlər Kabinetinin fəaliyyəti məqsədyönlü, sistemli və nəticəyönümlü olmuş, qarşıya qoyulan vəzifələrin böyük əksəriyyəti layiqincə icra edilmişdir.

Hörmətli Baş nazirin də qeyd etdiyi kimi, “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı”ndan aydın görünür ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı”nın 8.7.5.1.4-cü yarımbəndi üzrə 52 avtomobil yolunun layihələndirilməsi yekunlaşdırılmışdır. Eyni zamanda 2025-ci il üzrə muxtar respublika ərazisində 55,15 km uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur.

Qeyd etməliyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin 2026-cı ilin yaz sessiyasının əvvəlində öz işi barədə hesabatının təhlili zamanı məlum olmuşdur ki, komitəyə üzv olan deputatlara 2026-cı ilin birinci yarısında daxil olan müraciətlərin 10,52 faizi yol infrastrukturunun bərpası və yolların asfaltlanması ilə bağlı olmuşdur. 2026-cı ildə bu sahədə işlərin sürətləndirilməsi istiqamətində hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Çox sağ olun, Əjdər müəllim!

Deputatlardan əlavə sualı olan varmı?

Buyurun, Canməmməd müəllim!

**C.Canməmmədov,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

İcazənizlə, hesabat haqqında qısa təəssüratımı və humanitar sahə ilə bağlı təklif və xahişimi diqqətinizə çatdırıram.

Qeyd edim ki, təqdim olunan hesabat dövlət idarəçiliyində şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sənəd görülən işlərin obyektiv qiymətləndirilməsinə və qarşıdakı dövr üçün prioritetlərin düzgün müəyyənləşdirilməsinə geniş imkan yaradır. Hesabatda əksini tapan göstəricilər onu deməyə əsas verir ki, muxtar respublikada aparılan islahatlar sistemli xarakter daşıyır və uzunmüddətli inkişafın institusional əsaslarının möhkəmləndirilməsinə yönəldilmişdir. Bütün bunlar aparılan siyasətin səmərəliliyini təsdiqləyir və qarşıdakı dövr üçün aydın perspektivlər yaradır.

Hesabatda muxtar respublikada mədəniyyət və incəsənət sahəsində görülən işlər, tarixi və mədəni abidələrin qorunması, həmçinin həyata keçirilən mədəni-kütləvi tədbirlər haqqında geniş məlumat verilmişdir. Əlbəttə ki, bunlar təqdirəlayiq haldır. Bununla yanaşı, bir məsələni xüsusi vurğulamaq istəyirəm. Məlumdur ki, uşaq, yeniyetmə və gənclər sahəsində həyata keçirilən kütləvi tədbirlər üçün həm müasir şəraiti olan, həm də həcminə görə ən əlverişli binalardan biri də Naxçıvan şəhərində yerləşən Gənclik Mərkəzidir. Amma əfsuslar olsun ki, adı çəkilən mərkəz uzun müddətdir ki, fəaliyyətini dayandırmışdır. Halbuki, bu məkanın fəaliyyəti bərpa olunarsa, burada gənclərin intellektual, sosial və yaradıcı inkişafına xidmət edən çoxşaxəli tədbirlərin təşkili mümkün olar. Xüsusilə elmi-praktiki konfranslar, debat və diskussiya qrupları, startap və innovasiya müsabiqələri, peşəyönümlü seminar və treninqlər, müxtəlif yaradıcılıq festivalları, musiqi proqramları, sərgilər, vətənpərvərlik ruhunda maarifləndirici layihələr və film nümayişləri bu mərkəzin potensialından səmərəli istifadə olunmasına imkan verə bilər. Əlbəttə ki, belə tədbirlərin mütəmadi təşkili gənclərin asudə vaxtının səmərəli təşkilinə, onların cəmiyyətə inteqrasiyasına, bilik və bacarıqlarının inkişafına, eyni zamanda sağlam və aktiv vətəndaş mövqeyinin formalaşmasına ciddi töhfə verə bilər.

Bu baxımdan mən təklif və xahiş edirəm ki, mərkəzin fəaliyyətinin bərpa olunması məsələsi hökumət tərəfindən diqqətdə saxlanılsın.

Digər qeyd edəcəyim məsələ isə səhiyyə bölməsi ilə bağlıdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri tərəfindən TSEK-ə verilən göndərişlərin sayında olan fərqləri qeyd etmək istəyirəm.

Hesabat dövrü ərzində 2024-cü illə müqayisədə, TSEK-ə göndəriş verilən xəstələrin sayında 51 faiz, TSEK-ə verilən göndərişlərin sayında isə 20 faiz olmaqla ciddi artım müşahidə olunur. Xahiş edirəm ki, bu fərqin səbəbinə aydınlıq gətirilsin.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Çox sağ olun, Canməmməd müəllim!

Başqa sualı olan varmı?

Buyurun, Şəhla xanım!

**Ş.Əhmədova,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Bu gün “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” ilə tanış oldum. Hesabatın Səhiyyə Nazirliyinin fəaliyyətinə dair hissəsində göstərilən rəqəmlərin təhlili zamanı məlum olur ki, audiometriya müayinələrinin sayında 2024-cü illə müqayisədə 2025-ci ildə 92 faiz artım müşahidə edilmişdir. Nəzərə alsaq ki, müasir dövrdə eşitmə orqanı xəstəlikləri ilə müqayisədə daha geniş yayılmış və proqnozu daha ağır olan digər xəstəliklər var, o zaman bu göstəricinin çox yüksək bir artım olduğu qənaətinə gəlmək olar. Eyni zamanda 2025-ci ildə eşitmə orqanı xəstəlikləri ilə bağlı əlillik dərəcəsi təyin edilənlərin sayında da 2024-cü illə müqayisədə 1,7 faiz artımın olduğu müşahidə edilmişdir.

Bilmək istərdim ki, bu məsələ Səhiyyə Nazirliyi tərəfindən araşdırılıbmı və əgər araşdırılmışdırsa, bu artımın səbəbi nə ilə izah olunur?

Təklif edərdim ki, Səhiyyə Nazirliyi tərəfindən təqdim edilən hesabatda Tibbi Sosial Ekspert Komissiyasına verilən göndərişlərin təhlili xəstəxanalar üzrə aparılmaqla yanaşı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edildiyi kimi ayrı-ayrı xəstəliklər üzrə də təhlil edilmiş şəkildə təqdim edilsin.

Sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Şəhla xanım!

Əlavə sualı olan varmı?

Yoxdur.

Hörmətli Cabbar müəllim, səsləndirilən sualları indi və ya daha sonra yazılı şəkildə cavablandıra bilərsiniz.

**C.Musayev,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Əvvəlcə deputatlara geniş və əhatəli suallara görə təşəkkür edirəm!

Sualları cavablandırmaq üçün qeydlər götürmüşəm və hər biri haqqında cavab geniş şəkildə yazılı olaraq Ali Məclisə təqdim ediləcəkdir. Lakin bəziləri haqqında qısa fikirlərimi bildirəcəm.

İlk sual istehsal olunmuş kənd təsərrüfatı məhsullarının 2,8 faiz azalmasıdır. Məlumat üçün bildirim ki, 2025-ci ildə 142 min 541 hektar əraziyə 212 milyon kub metr su təmin edilmişdir. Lakin bildiyiniz kimi, ötən ilin quraq keçməsi, yağıntının az olması və otlaqların zəifləməsi nəticəsində həm yem qıtlığı, həm də kənd təsərrüfatı sahəsində geriləmə müşahidə olunmuş, eyni zamanda yem qıtlığı heyvandarlıq sahəsində vaxtından əvvəl kəsimlərə səbəb olmuşdur.

İkinci sual avtomobil yollarının yenidən qurulması və ya əsaslı təmir olunması ilə bağlıdır. Ümumi olaraq bildirmək istəyirəm ki, 2025-ci ildə yol infrastrukturu üzrə layihələr nəzərdə tutulmuşdur. 55,15 km yol yenidən qurulmuş və təmir edilmişdir, lakin bu əvvəlki illə müqayisədə 8 km azdır. Bunun müvafiq dövrlə müqayisədə az olmasının səbəbi bəzi təchizatçılar tərəfindən satınalma qanunvericiliyinin tələblərinin pozulması, bununla paralel olaraq tenderlərin ləğv edilməsi olmuşdur. Ümumilikdə, qrafik üzrə nəzərdə tutulan layihələr daha çox idi, lakin müəyyən prosedurların və təchizatçıların icrasını gözlənilən səviyyədə yerinə yetirməməsindən 8 km-dən çox geriləmə olmuşdur.

Digər sualımız deputat Pərvin xanım tərəfindən qaldırılmış kənddaxili avtomobil yollarının əsaslı təmiri ilə bağlı məsələdir. Ümumi olaraq cavablandırım ki, bu və önümüzdəki illər üçün böyük yol infrastrukturu istiqamətində layihələr nəzərdə tutulmuş, bununla bağlı artıq müvafiq addımlar atılmış və bir çoxu ekspertiza mərhələsindən keçmişdir.

Bildiyiniz kimi, satınalma prosedurunun həyata keçirilməsi üçün ilk olaraq layihələndirmə aparılır, daha sonra ekspertiza və tender mərhələsi keçirilir. Bu mərhələlərin artıq iki hissəsi başa çatmışdır. Cari il üçün nəzərdə tutulan bir çox layihə həyata keçiriləcəkdir.

Pərvin xanım və digər deputatlarımıza yol infrastrukturu ilə bağlı məlumat vermək istəyirəm ki, bu məsələ Azərbaycan Respublikasının bütün bölgələrində cənab Prezidentin dəstəyi ilə hər zaman prioritet sahə hesab olunur, o cümlədən muxtar respublika ərazisində də bu məsələ prioritet sahə kimi nəzərdə tutulmuşdur və ardıcıl olaraq işlər aparılacaqdır. Siz də seçicilərinizə rahat şəkildə bildirə bilərsiniz ki, önümüzdəki dövrlərdə mərhələli şəkildə bu proses həyata keçiriləcəkdir.

Suallar çox və əhatəlidir, bir daha vurğulayıram ki, vaxtın səmərəli istifadəsi üçün cavablar daha geniş və rəsmi şəkildə Ali Məclisə təqdim olunacaq.

Hörmətli Bəxtiyar müəllim, hörmətli deputatlar!

Yekunda bir daha 2025-ci ildə hökumətin həyata keçirdiyi fəaliyyətin yüksək qiymətləndirilməsinə görə Bəxtiyar müəllim başda olmaqla bütün deputatlara səmimi təşəkkürümü bildirirəm. Ali Məclislə hökumət arasında formalaşmış səmərəli əməkdaşlıq və işgüzar münasibətlər muxtar respublikanın sosial-iqtisadi, mədəni və humanitar sahələrdə davamlı inkişafına layiqli töhfələr verməklə yanaşı, dövlət idarəçiliyinin effektivliyinin artırılmasında əhəmiyyətli rol oynayır.

Geridə qoyduğumuz bu il mühüm nailiyyətlərlə yadda qalmışdır. Qarşıya qoyulan məqsədlərin uğurla həyata keçirilməsində deputatların fəal mövqeyi, eyni zamanda hökumət üzvlərimizin peşəkar və məsuliyyətli fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Qəbul edilən qanunvericilik aktları, aparılan müzakirələr və irəli sürülən təşəbbüslər muxtar respublikanın inkişafına və vətəndaş rifahının yüksəlməsinə mühüm təsir göstərir.

Hörmətli deputatlar və hökumət üzvləri!

Əldə olunmuş nailiyyətlər hər birimizin birgə əməyinin və səmərəli qarşılıqlı fəaliyyətinin nəticəsi, ilk növbədə isə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə sadiqliyin bariz təzahürüdür.

Qeyd etmək istəyirəm ki, qarşıda duran vəzifələr genişmiqyaslı olmaqla yanaşı, bizdən daha böyük səy, daha çevik yanaşma, gücləndirilmiş koordinasiya və yüksək məsuliyyət tələb edir. Mövcud çağırışlar və yeni inkişaf prioritetlərini nəzərə alaraq fəaliyyətimizi daha innovativ, çevik və nəticəyönümlü əsaslar üzərində qurmaq zəruridir.

Əminəm ki, mövcud əməkdaşlıq mühitini qoruyub saxlayaraq və onu daha da inkişaf etdirərək qarşıdakı illərdə daha mühüm uğurlara imza atacaq, muxtar respublikanın hərtərəfli inkişafını təmin edəcək və vətəndaşlarımızın rifah səviyyəsinin daha da yüksəldilməsinə nail olacağıq.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Çox sağ olun, Cabbar müəllim!

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 23.4-cü maddəsinə uyğun olaraq “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il üzrə fəaliyyəti haqqında hesabatı” ilə bağlı qərar layihəsi hazırlanmışdır.

Qərar layihəsini diqqətinizə çatdırıram.

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci və 23.4-cü maddələrinə əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını müzakirə edərək, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı nəzərə alınsın.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

İndi isə 15 dəqiqəlik fasilə elan olunur və sonra gündəlikdə duran növbəti məsələlərin müzakirəsi davam edəcək.

Hörmətli Baş nazirə və Nazirlər Kabinetinin üzvlərinə iclasda iştiraklarına görə təşəkkür edirik, Nazirlər Kabinetinin hesabatının müzakirəsi yekunlaşdığından fasilədən sonra iclasda iştirak etməyə bilərsiniz.

Çox sağ olun! Başqa təklifi olan varmı?

Yoxdur.

15 dəqiqə fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar, iclasımız davam edir.

Gündəlikdə duran ikinci məsələ “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Bildiyimiz kimi, “Naxçıvan Muxtar Respublikası Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VII KQD nömrəli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 24-cü və 25-ci maddələrindən Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə bağlı müddəalar çıxarılmışdır.

Bu səbəbdən “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi zərurəti yaranmışdır.

Ləğvetmə ilə bağlı qanun layihəsi hazırlanıb deputatlara paylanılmışdır. Layihə Hüquq siyasəti komitəsinin 9 aprel 2026-cı il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, eləcə də Ali Məclis Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Məlum olduğu kimi, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu 10 mart 2026-cı il tarixdə cənab Prezident tərəfindən imzalanmış və həmin tarixdən qüvvəyə minmişdir.

Dəyişikliklərlə Naxçıvan Muxtar Respublikası Konstitusiyasından Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) barədə müddəalar çıxarılmışdır.

Bildirməliyəm ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əvvəlki redaksiyasında Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili ilə bağlı 3 fərqli maddədə müddəa var idi.

Maddə 5, maddə 24 və maddə 25.

Burada xüsusilə 24-cü maddənin 3-cü bəndi artıq yeni redaksiyada qanunun mətnindən çıxarılıb.

Bununla da Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının Naxçıvan Muxtar Respublikasının ərazisində ayrıca bir qurum kimi fəaliyyət göstərməsi ilə bağlı hüquqi əsaslar aradan qaldırılıb.

Eyni zamanda Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əvvəlki redaksiyasının 25-ci maddəsinin 7-ci bəndində Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsi məsələsi və 5-ci maddədə təklifi irəli sürən subyektlə bağlı maddənin Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından çıxarılması artıq Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Naxçıvan Muxtar Respublikası ərazisində ayrıca təsisat olaraq fəaliyyətini istisna edir.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmış və 8 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuşdur. Komitənin 9 aprel 2026-cı il tarixdə keçirilən iclasında Hüquq siyasəti komitəsinin üzvlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə geniş müzakirə edilmişdir. Komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 10 mart 2026-cı il tarixdə qüvvəyə minmiş "Naxçıvan Muxtar Respublikası Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tələblərinə əsasən hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 9 aprel 2026-cı il tarixdə keçirilən iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun ləğv edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Ölkə başçısı cənab İlham Əliyevin imzaladığı Azərbaycan Respublikasının 27 fevral 2026-cı il tarixli Qanunu ilə "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklə Milli Məclis sədrinin, Milli Məclis sədrinin müavinlərinin, Milli Məclisin komitə və komissiya sədrlərinin və Milli Məclisin deputatının yeni aylıq vəzifə maaşları müəyyən edilmişdir.

Məlumat üçün bildirirəm ki, həmin qanunla ölkə üzrə əməyin ödənilməsi sistemi ilə bağlı yeni yanaşmanın tətbiqi təmin olunmuşdur. Qeyd edilən yeni yanaşma və tənzimləmələr ölkədə müxtəlif sahələrdə əməkhaqqı sistemində həyata keçirilən islahatların növbəti mərhələsi hesab olunur və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda da dəyişiklik edilməsini zəruri edir.

Bu məqsədlə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanmış və deputatlara təqdim edilmişdir.

Layihə Hüquq siyasəti komitəsinin 9 aprel 2026-cı il tarixli iclasında komitə sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda 2 maddə üzrə dəyişikliklərin edilməsi, eyni zamanda layihənin özündə keçid müddəa və qanunun tətbiqi vaxtı ilə bağlı ayrıca maddə nəzərdə tutulur.

Qanun layihəsinin hazırlanmasında məqsəd “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasının təmin edilməsi və deputatların maddi təminatının yaxşılaşdırılmasıdır.

Qanun layihəsinə əsasən qanunun 11-ci maddəsinin ikinci hissəsində “sənədlərlə” sözü “qanun və qərarlarla” sözləri ilə, “Məclisinin fərman və” sözləri “Məclisi sədrinin” sözləri ilə əvəz edilir. Əvvəlki redaksiyada qeyd olunur ki, deputat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi sənədlərlə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fərman və sərəncamları ilə, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları ilə təmin olunur.

Burada sənədlərlə sözü daha da dəqiqləşdirilir, qanun və qərarlarla ifadəsi ilə əvəz edilir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında edilmiş dəyişikliklər artıq “Məclisinin fərman və” sözləri “Məclisi sədrinin” sözləri ilə əvəz edilməsi zərurəti yaratmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi 8 aprel 2026-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuşdur. Komitənin 9 aprel 2026-cı il tarixdə keçirilən iclasında qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının əməkdaşlarının iştirakı ilə geniş müzakirə edilmişdir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.1-ci maddəsinə əsasən Komitə müzakirə etdiyi məsələlərə dair qərar və rəylər qəbul edir. Həmin qanunun 8.2.1-ci maddəsinin tələbinə görə Hüquq siyasəti komitəsi Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər ilə bağlı qanun layihələrini hazırlayır və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verir. Buna müvafiq olaraq komitə iclasında rəy layihəsi hazırlanmış, səsvermə keçirilmiş və rəy yekdilliklə qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının və “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasının təmin edilməsi və deputatların maddi təminatının yaxşılaşdırılması məqsədi ilə hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 9 aprel 2026-cı il tarixdə keçirilən iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran dördüncü məsələ "Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsinin müzakirəsidir.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli Fərmanı ilə Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbərlərinin və onların müavinlərinin yeni aylıq vəzifə maaşları müəyyən edilmişdir.

Analoji olaraq Naxçıvan Muxtar Respublikasının dövlət orqanları rəhbərlərinin və onların müavinlərinin də yeni aylıq vəzifə maaşlarının müəyyən edilməsi ilə əlaqədar müvafiq qərar layihəsi hazırlanmışdır.

Hörmətli həmkarlar, qərar layihəsi sizlərə təqdim olunmuşdur.

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə sualı olan varmı?

Yoxdur.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat qərarın lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Gündəliyin beşinci məsələsi Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi barədədir.

Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sonuncu tərkibi Ali Məclisin 2024-cü il 16 noyabr tarixli 7-VII QR nömrəli Qərarı ilə seçilmişdir. Mərkəzi Seçki Komissiyasından Ali Məclisə daxil olmuş məlumata əsasən, komissiya üzvü Heydərli Elşən Sadıq oğlu vəzifəsindən vaxtından əvvəl azad edilməsi barədə ərizə ilə müraciət etmişdir.

Ali Məclisin Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndi ilə müəyyən olunan səlahiyyətinə uyğun olaraq Elşən Heydərlinin komissiya üzvlüyündən azad edilməsi məqsədilə "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 16 noyabr tarixli 7-VII QR nömrəli Qərarında dəyişiklik edilməsi ilə bağlı layihə hazırlanmışdır.

Qərar layihəsini diqqətinizə çatdırıram.

“Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 16 noyabr tarixli 7-VII QR nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 8-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

“Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 16 noyabr tarixli 7-VII QR nömrəli Qərarından “Heydərli Elşən Sadıq oğlu” sözləri çıxarılsın.

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim qərarın qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 44 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 44 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 44 deputat “Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 16 noyabr tarixli 7-VII QR nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Hörmətli həmkarlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!